# "Türkiyə Azərbaycanla birgə Suriyanın bərpasına töhfə verməyə çalışır"

**"Türkiyə enerji resurslarını münaqişə və ziddiyyət mənbəyi kimi deyil, sülhə və qarşılıqlı rifahın artmasına aparan körpü kimi dəyərləndirir".**



AZƏRTAC xəbər verir ki, bunu Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar ölkənin şimal-şərqində yerləşən Rizə vilayətində keçirilən "Ayder" Beynəlxalq Enerji Forumunda çıxışı zamanı bildirib.

Nazir qonşu Suriya nümunəsini xatırladaraq qeyd edib ki, uzun illər davam edən qanlı münaqişə dövründən sonra bu ölkədə bərpa və normallaşma prosesi başlayıb. "Bu gün Türkiyə Azərbaycanla birgə Suriyanın yenidən inkişafı məqsədilə bu ölkəyə qaz nəql edir. Eyni zamanda suriyalılara elektrik enerjisi veririk, müxtəlif sahələrdə çoxsaylı layihələr həyata keçiririk. Bununla da enerji resurslarından sülh və inkişaf naminə istifadə edirik", - deyə nazir vurğulayıb və "qarşılıqlı fayda" prinsipinə xüsusi diqqət çəkib.

Energetika naziri Türkiyənin xarici mənbələrdən enerji asılılığını minimuma endirməyə çalışdığını, bununla paralel olaraq xaricdə birgə təşəbbüslər reallaşdırdığını bildirib.

"Son 20 il ərzində Türkiyə iqtisadiyyatının elektrik enerjisi və təbii qaza olan tələbatı üç dəfə artıb. Proqnozlara əsasən, qarşıdakı 30 ildə ölkəmizdə elektrik enerjisi istehlakı daha üç dəfə artacaq", - deyə A.Bayraktar bildirib və müəyyən illərdə Ankaranın enerji resurslarının idxalına çəkdiyi xərclərin 60-70 milyard dolladadək çatdığını qeyd edib.

Nazir əlavə edib ki, Türkiyənin enerji şirkətləri Afrikadan və Yaxın Şərqdən Mərkəzi Asiyaya qədər dünyanın müxtəlif bölgələrində layihələr həyata keçirir.

A.Bayraktar atom enerjisinin inkişafının əhəmiyyətinə də toxunaraq, "Akkuyu" Atom Elektrik Stansiyasını "Türkiyə xalqının 70 illik arzusunun təcəssümü" adlandırıb. "Mersin vilayətində yerləşən AES-də elektrik enerjisinin istehsalına bu il artıq başlanılacaq. "Akkuyu"nun dörd reaktorundan birincisi istismara veriləcək. Türkiyənin ilk atom elektrik stansiyası ölkənin ümumi elektrik enerjisi istehsalının 10 faizini təmin edəcək", - deyə nazir bildirib və Sinop və Trakiyada yeni AES-lərin tikintisinə hazır olduqlarını vurğulayıb.

"Bu AES-lər, eləcə də modul tipli atom stansiyaları sayəsində 2050-ci ilə qədər Türkiyə 20 min meqavatadək elektrik enerjisi istehsal edəcək. Biz bu məqsədə çatmaqda qətiyyətliyik", - deyə A.Bayraktar qeyd edib.

Eyni zamanda energetika naziri Ankaranın qonşu ölkələrlə əməkdaşlığın inkişafına, o cümlədən Avropa ölkələrinin enerji tələbatının ödənilməsinə töhfə verməyə hazır olduğunu bildirib.

Azərbaycan. - 2026.-17 yanvar (№ 10).- S.11.